**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA DİN VƏ İRFAN

**Elm sahəsi:** **Filologiya**

**İxtisas:** **5716.01 – Azərbaycan ədəbiyyatı**

**İddiaçı:** **Xəyalə Rasim qızı Hüseynova**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2023**

Dissertasiya işi AMEA Gəncə Bölməsinin
Nizami Gəncəvi Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Vasim Məmmədəli oğlu Məmmədəliyev**
Filologiya elmləri doktoru, professor
**Xəlil Həmid oğlu Yusifli**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

Filologiya elmləri doktoru, dosent
**Xuraman Bəhman qızı Hümmətova**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səba Azad qızı Namazova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
______________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
______________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
______________ **Leyla Kamran qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilmə dərəcəsi.** Nizami Gəncəvi adı və yaradıcılığı Azərbaycan, Şərq və dünya ədəbiyyatının həmişəyaşar sənət və yaradıcılıq möcüzəsidir. XII əsrin bu dahi sənətkarı poeziyası ilə özünəqədərki bədii yaradıcılığın bütün poetik mizan və ənənələrini dəyişərək, Şərq ədəbi düşüncəsinə yeni ideya, yeni poetik düşüncə tərzi, yeni bədii-estetik normalar gətirdi.

Nizami yaradıcılığı mövzu və ideya baxımından çox zəngindir. Onun yaradıcılıq obyekti bütün dünyadır. Mütəfəkkir şair olan Nizami Gəncəvinin poeziyası, sözün həqiqi mənasında, həm də fəlsəfi poeziyadır. Öz dövrünün elmlərini mənimsəmiş Nizaminin yaradıcılığında bəşəriyyətin nəhəng fəlsəfi və ideoloji düşüncə sistemlərinə bədii-fəlsəfi baxış var. Bu cəhətdən Nizami yaradıcılığını həm ideya, həm də məzmun baxımından dinlər tarixindən, o cümlədən İslam dinindən kənarda təsəvvür etmək mümkün deyildir.

Dini görüşləri baxımından mömin müsəlman olan Nizami Gəncəvi İslam dinini ilahi vəhy hadisəsi kimi qəbul etməklə yanaşı, ona səmavi dinlər kontekstində yanaşmış və İslam dini ilə bağlı olan bütün dini-ideoloji düşüncə sistemlərinə, o cümlədən Şərqin nəhəng ideoloji hadisəsi olan irfani düşüncəyə ilahi risalətin yaradılış aləmində reallaşmış təzahür səviyyələrini özündə birləşdirən sistem kimi baxmışdır. Bu cəhətdən din və irfan Nizami yaradıcılığının bədii-ideoloji sistemində mühüm məna mərkəzlərini təşkil edir.

Azərbaycan nizamişünaslığında Nizami yaradıcılığında din və irfan mövzusu daim diqqət çəkmişdir. Lakin zamandan və məkandan asılı olaraq, bu mövzuya fərqli yanaşmalar olmuşdur. Heç şübhəsiz ki, ateist ideologiyanı təbliğ edən sovet dönəmində Nizami yaradıcılığını din və irfan baxımından obyektiv şəkildə, tədqiqatçıların daxili inamlarına əsaslanaraq həll etmək mümkün deyildi. Sovet təhlil metodları nizamişünaslardan öz münasibətlərini bütün hallarda tənqidi, inkarçı mövqedən ortaya qoymağı tələb edirdi. Nizami peoziyasında din və irfanın yeri və rolunu dərk edən obyektiv tədqiqatçılar bu mövzuya ya toxunmamağa çalışır, ya ötəri toxunur, ya da öz sözlərini üstüörtülü də

olsa, ifadə etməyə cəhd edirdilər. Bu da onunla nəticələndi ki, Nizami poeziyasında din və irfan mövzusu bütöv sovet epoxasında, demək olar ki, toxunulmamış qaldı.

*Mövzunun Azərbaycan filologiyasında öyrənilmə dərəcəsinə* gəldikdə qeyd etməliyik ki, Nizami Gəncəvi irsi dəfələrlə araşdırma mövzusu olmuş, qiymətli tədqiqat əsərləri yazılmışdır. Lakin dahi şairin yaradıcılığında dini fəlsəfi məsələlərin təhlili məsələsi öz layiqli təhlilini tapmamışdır. Xüsusilə Sovet hökuməti dövründə aparılmış araşdırmalar, həmin dövrdə dövlətin əsas ideologiyası ateizm olduğundan birmənalı şəkildə obyektiv hesab olunmamalıdır. Ateizm cəmiyyəti dini dünyagörüşünü inkar etdiyi halda tədqiqatçı alıb bu məsələni obyektiv təhlil edə bilməzdi. Bunun nəticəsidir ki, Nizami Gəncəvi yaradıcılığında din və irfan mövzusu obyektiv təhlil edilməmiş qalır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin *obyektini* Nizami Gəncəvinin poetik yaradıcılığı (beş poeması), *predmetini* isə Nizaminin əsərləri əsasında onun dini-irfani görüşlərinin öyrənilməsi təşkil edir. İşin predmeti konseptual baxımdan Nizami yaradıcılığında peyğəmbərlik, merac, nəfs, ruh, Allahın isim və sifətləri, kamil-insan kimi anlayışları əhatə edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın qarşısında duran əsas məqsəd Nizami yaradıcılığında din və irfan məsələlərinin öyrənilməsidir. Həmin məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

– Nizami yaradıcılığında ibtidai inanclardan istifadə və sənətkarın bu inanclara tövhid kontekstində bədii-estetik münasibəti məsələlərinin tədqiqi;

– Şairin yaradıcılığında peyğəmbər obrazları və onların bədii-fəlsəfi məna aləminin öyrənilməsi;

– Nizami yaradıcılığında Məhəmməd (s.a.s) peyğəmbər obrazının bədii-estetik və fəlsəfi-dini xüsusiyyətlərinin tədqiqi;

– "Xəmsə"dəki meracnamələrin bədii-estetik, fəlsəfi-poetik semantikasının araşdırılması;

– Nizaminin dini-irfani görüşlərindəki "nəfs" anlayışının öyrənilməsi;

– Şairin ruh probleminə münasibətinin şərhi;

– Nizami yaradıcılığında Allahın (c.c) isim və sifətlərinin bədii-fəlsəfi məna xüsusiyyətlərinin tədqiqi;

– Şairin yaradıcılığında kamil insan obrazının dini-irfani semantikasının araşdırılması və s.

**Tədqiqatın metodları.** Dissertasiyada *müqayisəli-tarixi* və *müqayisəli-tipoloji* yanaşma metodlarından istifadə olunmuşdur.

Problemə *müqayisəli kontekstdə* yanaşma Şərq ədəbiyyatının bədii-fəlsəfi qaynağı olan din və irfan mövzusuna Nizami yanaşmasının orijinallığını ortaya qoymağa imkan verir. Nizami Gəncəvi öz dövrünün humanitar və dəqiq elmlərini mənimsəmiş mütəfəkkir şair idi. Din və irfan onun üçün sadəcə mövzu qaynağı deyil, əsərlərinin fəlsəfi əsasını, obraz və ideyalarının poetik ruhunu təşkil edən ilahi enerji mənbəyi idi. O, öz əsərələrində dini-irfani ideya, obraz və motivlərdən sadəcə istifadə etməmiş, onlara öz poetik istedadı və mütəfəkkir düşüncəsi ilə yeni bədii ruh və fəlsəfi məna vermişdir. Bütün bu məsələlərə müqayisəli baxış Nizami dühasının orijinallığını üzə çıxrmağa, onun mütəfəkkir obrazını yaratmağa kömək edir.

Problemə *tarixi kontekstdə* yanaşma Nizami yaradıcılığında din və irfan məsələlərinin qoyuluşunu tarixi inkişaf baxımından dəyərləndirməyə, eyni zamanda sənətkarın dini-irfani görüşlərinin onun ömür tarixi çərçivəsində necə inkişaf etdiyini öyrənməyə imkan verir.

Problemə *tipoloji kontekstdə* yanaşma Nizami yaradıcılığında din və irfan məsələlərinin bədii-fəlsəfi baxımdan işlənməsinin tipik cəhətlərini öyrənməyə imkan verir. Nizami orijinal təfəkkürə malik sənətkar idi. Onun düşüncəsi geniş ümumiləşdirmə imkanlarına malik idi. Ona görə də biz şairin yaradıcılığında bütün məsələlərin, o cümlədən din və irfan məsələlərinin də qlobal kontekstdə qoyuluşu ilə qarşılaşırıq. Tədqiqat bizdən "Xəmsə"də gerçəkliyə münasibətin Nizami tipini aydınlaşdırmağı tələb edir. Nizaminin  düşüncə tipinin özünəməxsusluğu aydınlaşdırlmayınca onun din və irfan məsələləri ilə bağlı Şərq bədii-fəlsəfi düşüncə tarixinə gətirdiyi yenilikləri açıqlamaq mümkün deyildir.

Beləliklə, dissertasiyada problemə tarixi-müqayisəli və müqayisəli-tipoloji metodlarla yanaşmalar Nizami yaradıcılığında din və

irfan məsələlərinin qoyuluşunu bütün bədii-estetik mahiyyəti və fəlsəfi-poetik özünəməxsusluğu ilə tədqiq etməyə imkan verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Dissertasiyada müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. Nizami yaradıcılığında dini motiv və obrazlar sənətkarın bütün yaradıcılığını əhatə etməklə zəngin məna layını təşkil edir.

2. Nizami yaradıcılığında "din" konsepti təkcə vəhy dinlərini deyil, eləcə də dinlərəqədərki mifik inanc sistemlərini də əhatə edən nəhəng fəlsəfi-poetik hadisədir.

3. Nizami yaradıcılığında dini motiv və obrazlar sisteminin əsasında "peyğəmbər" konsepti durur. Sənətkar "peyğəmbərlik" missiyasını Allah-Dünya-İnsan münasibətlər modelinin əsas məna xətti kimi mənalandırır.

3. Nizami yaradıcılığında Allahın isim və sifətləri irfani-bədii düşüncə kateqoriyaları kimi götürülmüşdür.

4. Sənətkarın təqdim etdiyi kamil insan modelinin məna strukturu bütün hallarda Allahın isim və sifətlərinin məna aləminə əsaslanır.

5. Nizami öz yaradıcılığında irfani motiv və obrazlardan istifadə etməsinə baxmayaraq, o, bir təsəvvüf şairi deyildir.

6. Sənətkarın yaradıcılığında "nəfs", "ruh", "kamil insan" konseptləri həm irfani-dini kateqoriya, həm də bədii ideya kimi təcəssüm etdirilmişdir.

**Tədqiqatın elmi yenilikləri.** Dissertasiya işində problemlə bağlı, əsasən, aşağıdakı elmi yeniliklər əldə olunmuşdur:

– Nizami yaradıcılığında dini motiv və obrazların təhlil edilməsi ilə "Xəmsə"dəki mifik-dini inancların bədii-fəlsəfi mahiyyəti üzə çıxarılmışdır;

– Şairin peyğəmbərlik haqqında dini-fəlsəfi görüşləri və bu görüşlərin peyğəmbər obrazlarında bədii-fəlsəfi cəhətdən necə təcəssüm olunması dəyərləndirilmişdir;

– Sənətkarın Hz. Məhəmmədə peyğəmbərlik və insanlıq etalonu kimi yanaşması üzə çıxarılmış və bu yanaşmanın bədii-dini təcəssüm xüsusiyyətləri tədqiq olunmuşdur;

– “Xəmsə”dəki meracnamələrin dini-idraki mahiyyəti və mənəvi təkamül funksiyası təhlil olunmuşdur;

– Nizami yaradıcılığında irfani motiv və obrazların təhlili yolu ilə sənətkarın irfani-fəlsəfi baxışlar sistemində nəfs konseptinin mahiyyəti öyrənilmiş və bu görüşlərin onun poeziyasında bədii təcəssüm xüsusiyyətlərinə qiymət verilmişdir;

– Sənətkarın “ruh” anlayışına irfani-dini kateqoriya kimi yanaşması aşkar edilmiş və bu anlayışın “Xəmsə”də bədii ideya kimi poetik təkamül xüsusiyyətləri tədqiq olunmuşdur;

– Şairin Allahın isim və sifətləri haqqında irfani-fəlsəfi görüşlərinin bədii-estetik təcəssüm xüsusiyyətləri öyrənilmişdir;

– Nizaminin irfani-fəlsəfi baxışlar sistemində Allahın “Təvvab” isminə insanın irfani-əxlaqi kamilləşmə modeli kimi yanaşılması aşkar edilmiş və bunun “Xəmsə”də bədii təcəssüm xüsusiyyətləri təhlil olunmuşdur;

– Mütəfəkkir şairin modelləşdirdiyi kamil insan obrazının irfani xassələri və poetik məna aləmi öyrənilərək sistemləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın *nəzəri əhəmiyyəti* tədqiqatda əldə olunmuş nəzəri-metodoloji tezis və nəticələrdən fəlsəfi-poetik və bədii-estetik yükü baxımından tükənməz qaynaq olan Nizami Gəncəvinin dini-irfani görüşlərinə dair yazılacaq gələcək tədqiqatlarda istifadə imkanları ilə müəyyənləşir.

Tədqiqatın *praktiki əhəmiyyəti* ondan ilk növbədə ali məktəblərin bakalavriat və magistratura proqramları üzrə tədris prosesində istifadə imkanları ilə müəyyənləşir. Elmi tədqiqat işinin nəticələrindən hasil olan müddəalardan Azərbaycanın XII əsr fəlsəfi fikir tarixinin dini aspektdən yazılmasında, ali təhsil ocaqlarında dərslik və proqramların yazılmasında, dahi şairin yaradıcılığına müraciət edilən xüsusi ixtisas kurslarında, mühazirə mətnlərinin hazırlanmasında elmi mənbə və əlavə tədris vəsaiti kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi müddəa və nəticələri şöbənin və Gəncə Bölməsinin Elmi Şurasının zəmanəti ilə respublika daxilində və xaricdə müxtəlif elmi dərgi və tematik toplularda,

eləcə də elmi konfrans materiallarında dərc edilmiş məqalələrdə öz əksini tapmışdır. Mövzu üzrə 14 elmi əsər nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzində yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu Gəncə Regional Elmi Mərkəzin Nizamişünaslıq Bölməsində müəyyənləşdirilmiş, 23 may 2014-cü il tarixdə "Şərqşünaslıq" şöbəsinin genişlənmiş iclasında (protokol №1) təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu:** Dissertasiya işi giriş ( 13368 işarə), I fəsil ( 96170 işarə), II fəsil ( 59221 işarə), III fəsil ( 98453 işarə), nəticə ( 9607 işarə), və ədəbiyyat siyahısından ibarət olmaqla, ümumi həcmi 276823 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, obyekti və predmeti, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar göstərilir, elmi yenilikləri sadalanır, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, həmçinin ümumi həcmi haqqında məlumatlar verilir.

**Dissertasiyanın "Nizami yaradıcılığında dini motiv və obrazlar" adlanan birinci fəslində** Nizami yaradıcılığında mifik-dini inanclara bədii-fəlsəfi yanaşmalar, peyğəmbərlik anlayışı və peyğəmbər obrazlarının bədii-fəlsəfi mənalandırılması, Hz. Məhəmməd obrazının peyğəmbərlik və insanlıq etalonu kimi götürülməsi və meracnamələrin dini-fəlsəfi məna aləmi kimi məsələlər tədqiq olunur.

*Birinci fəslin* **"Mifik-dini inanclara bədii-fəlsəfi yanaşmalar"** *adlanan birinci paraqrafında* müəyyənləşdirilir ki, Nizami yaradıcılığında mifoloji motivlərin də inikası, heç şübhəsiz ki, şairin təfəkkürünün qeyri-adi genişliyi və dərinliyi ilə bağlıdır. Böyük sənətkarın yaradıcılığında öz əksini tapmış mifoloji motivlər onun bir tərəfdən idraki-fəlsəfi maraqlarını əks etdirirdisə, o biri tərəfdən, burada bədii-estetik maraqlar öz ifadəsini tapmışdır.

Şair dinlərə qədərki mifik inancları “Xəmsə”nin bədii-estetik harmoniyasına incə şəkildə daxil etməyi bacarmışdır. Əhmədağa Əhmədovun təbirincə desək, *“Şair-alim”* Nizami Gəncəvi bilirdi ki, bütün qədim xalqlar kimi keçmişi neçə min illər əvvələ gedib çıxan xalqımız da İslama qədər müxtəlif dini mərhələlərdən keçmişdir.[1]

Nizami poeziyasında bir çox mifoloji anlayış və ideyalarla qarşılaşırıq. Bunlardan biri “həyat ağacı” // “dirilik suyu” konseptidir. Məsələn, “İskəndərnamə”də oxuyuruq:

Dirilik suyu içməyə ümid bəsləyərək
İndi hər kəs görürsən ki, can qəmi çəkir[2].
به امید آن که آب حیوان خورد
که هرکس که بینی غم جان خورد[3]

“Dirilik suyu” gerçəkliyə mifik yanaşmanın mühüm obrazlarındandır. Bu obraz mifik əbədi həyat konsepsiyasını təcəssüm etdirir. Nizami dirilik suyu obrazının mifik mənası ilə gerçəkliyin ilahi dərkini qarşılaşdıraraq aşağıdakı fəlsəfi qənaətlərə gəlir:

– Əbədiyyət insanın maddi varlığında yox, ruhundadır;

– İnsanın ruhu əbədi, bədəni müvəqqətidir;

– Maddi olanı ideallaşdıranlar özlərini ruhani əbədiyyətdən məhrum edirlər;

– Şair “Sənin sinən güzgünün cövhəridir” ifadəsi ilə Uca Yaradana müraciət edir. Çünki kainat güzgüdür. Güzgüdə əks olunan hər şeyin mənası Uca Allahdandır. Yəni var olan hər şeydə Allahın təcəllisini görmək olar.

– İnsan ömrünün mənası müvəqqəti olanda əbədini axtarmaqdadır. Nizami həmin “əbədini” mifik “dirilik suyu” obrazında təcəssüm etdirmişdir.

---

[1]Əhmədağa Əhmədov. Nizami-elmşünas. Bakı: Möminin, 2001, s. 3

[2]Nizami Gəncəvi. İskəndərnamə (“Şərəfnamə”). Bakı, Lider nəşriyyat, 2004, s. 371

[3]کلیات خمسه نظامی. به کوشش و :کاظم عابدینی. تحران: انتشارات آدینه سبز۱۳۹۱. صفحه۱۰۴۱ ویرایش

Xəlil Yusifli yazır ki, *"keçmişdə kiçik yaşlı uşaqları bəd nəzərdən qorumaq üçün boyaqxana küpünün dövrəsinə dolandırar, üzlərinə nil (qara rəng) çəkərdilər"*[4].Nizamidə də oxuyuruq:

Üzünün dövrəsinə nil ki çəkirlər,
Əğyarın yaman gözünü dəf etmək üçündür[5].
نیلی که کشند گرد رخسار
هست ازپی زخم چسم اغیار[6]

Nizami poemalarında şamanizm, animizm, totemizm, magiya kimi ibtidai dini inanc formalarını inikas edən motivlərə rast gəlinir. Öz yaradıcılığında folklor hikmətindən, xalq müdrikliyini əks etdirən əfsanə və rəvayətlərdən geniş şəkildə istifadə edən Nizami bu mətnləri bədii cəhətdən cilalamaqla qalmamış, onlarda yaşayan qədim dünyagörüşünün ilahi sirləri barəsində düşünmüşdür. Sənətkar qədim kahinlərin, şamanların öz praktikalarında mistik varlıqlarla doğrudan da əlaqəyə girdiklərini müşahidə etmiş və bu mistik varlıqların "İskəndərin başa sitayiş edənlər kəndinə yetişməsi" hekayəsində olduğu kimi, divlər/cinlər olduğunu göstərmişdir.

Nizami yaradıcılığında sıx-sıx zərdüştilik motivləri ilə qarşılaşırıq. Nizami Gəncəvi zərdüştilik haqqında dərin biliklərə sahib olmuşdur. Məsələn, "Yeddi gözəl"də yazır:

Bu kitabın qəsrini atəşpərəstlərin Zəndi (kitabı) kimi
Yeddi gəlinlə ona görə bəzədim ki...[7]

"Xəmsə" mifik-dini inancları özündə əks etdirən motivlərlə də zəngindir. Şair poemalarında xalq fəlsəfəsini əks etdirən əfsanə, rəvayət, əhvalatlardan geniş şəkildə istifadə etmişdir. Nizami "Xəmsə"də mifik-dini inanclara təkcə bədii-estetik baxımdan yanaşmamış, eyni zamanda bu inancların fəlsəfi dərinliklərinə enmiş, onları tövhid dini kontekstində

---

[4]Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Lider nəşriyyat, 2004, s. 280

[5] Nizami Gəncəvi. Leyli və Məcnun / Filol. tərc., izahlar və qeydlər M.Əlizadənindir. Bakı: Elm. 1981, s. 69

[6]کلیات خمسه نظامی. به کوشش و :کاظم عابدینی. تحران: انتشارات آدینه سبز۱۳۹۱. صفحه۳٤ ویرایش

[7]Nizami Gəncəvi. Yeddi gözəl / Filol. tərc., izahlar və qeydlər R.Əliyevindir. Bakı: Elm, 1983, s. 26

dəyərləndirmişdir. Sənətkar qeyri-vəhy dinlərinin idraki təcrübəsinə də əsil filosof kimi yanaşmışdır. Bu, özünü onun zərdüştiliyə münasibətində xüsusi olaraq qabarıq göstərir. Nizami zərdüştiliyi vəhy dini olaraq qəbul etməsə də, bu dinin fəlsəfəsindən geniş istifadə etmişdir[8].

*Birinci fəslin* **“Peyğəmbərlik anlayışı və peyğəmbər obrazlarının bədii-fəlsəfi mənalandırılması”** *adlanan ikinci paraqrafında* göstərilir ki, Nizami yaradıcılığında xeyirə təşfiq, yaxşılığa meyl, düzgün həyat tərzinin təbliği kimi məsələlərin etalonu peyğəmbərlərin, yəni İlahi tərəfindən seçilmiş, bəşəriyyətə nemət olaraq göndərilmiş şəxsiyyətlərin həyat tərzləridir. Şair üçün müsəlman kimliyinin modeli Məhəmməd peyğəmbərdir və insan bütün idrakı ilə bu modeli öz həyat tərzinə çevriməyə can atmalıdır.

İdeal insan modelini tərənnüm və təbliğ edən mütəfəkkir şair poemalarının hər birində peyğəmbərlərdən bəhs etmişdir. “Qurani-Kərim”də Allahın insanlara misal gətirdiyi peyğəmbərlərin həyat hekayələrini şairin əsərlərində də aydın şəkildə görmək mümkündür. Sənətkar “Sirlər xəzinəsi” əsərində “Adəmin yaradılmasına dair”, “Süleyman peyğəmbərlə qoca əkinçinin məqaləti”, “İsa peyğəmbərin hekayəti”, “İskəndərnamə” əsərində “Xızrın Nizamiyə təlimi” kimi ayrı-ayrı başlıqlı hekayətlər də vermişdir.

Nizami yazır:

Hökm də, hökmranlıq da Onundur,
Peyğəmbərlərə vəhy göndərən də Odur[9]
Dinpərvərlərin sidqinə,
Peyğəmbərlərə gələn vəhyə[10].

---

[8]**Birinci fəslin birinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Hüseynova, X. Nizami Gəncəvi əsərlərində ibtidai inanclar // Qərb bölgəsinin milli–mənəvi dəyərləri mövzusunda Respublika elmi– praktik konfrasın materialları, – Gəncə: – 2015. – s. 72-77.

[9] Nizami Gəncəvi. İskəndərnamə (“Şərəfnamə”) / Filoloji təcümə: Qəzənfər Əliyev. Bakı: Elm, 1983, s. 258

[10] Nizami Gəncəvi. İskəndərnamə (“İqbalnamə”) / Filoloji tərcümə: Vaqif Aslanov. Bakı: Elm, 1983, s. 600

Nizami Gəncəvinin əsərlərində bu peyğəmbərlərin adı çəkilir: Adəm, Nuh, Saleh, İbrahim, İsmail, İshaq, Yaqub, Yusif, Xızır, Musa, İlyas, Yunus, Davud, Süleyman, Loğman, İsa, Məhəmməd.

Peyğəmbərlərin həyat hekayələri böyük önəmə sahib olduğu üçün şair Qurani-Kərimdə keçən həmin qissələri öz poemalarında yenidən bədiiləşdirmişdir. Nizami peyğəmbərlik anlayışını İslamın müqəddəs kitabına əsaslanaraq bədiiləşdirmiş, peyğəmbəri ilahi vəhy teoinformasiya qəbulediciləri hesab etmişdir. Peyğəmbərləri Allah tərəfindən seçilmiş insanlar hesab edən sənətkar bu seçim hadisəsinə bədii-psixoloji, fəlsəfi-poetik aspektlərdə yanaşmışdır. Şairə görə, peğəmbərlərin seçimində ilahi meyar vardır. Bu meyarın insanlara görünən və görünməyən tərəfləri vardır. Meyarın görünən tərəfləri peyğəmbərlərin öz əxlaqına, davranışına, insanlara və ümumən bütün canlı aləmə şəfqətli, mərhəmətli münasibətində ifadə olunur.

Şairə görə, peyğəmbər Allahla (c.c) insanlar arasında vasitəçi, ötürücü varlıqdır. Onun ötürücülüyü Allahdan gələn bilgiləri olduğu kimi insanlara çatdırmaqla ifadə olunur. Peyğəmbərlər bu məlumatları nə artıra, nə azalda, nə də dəyişdirə bilməzdilər.

“Xəmsə”də peyğəmbər obrazlarının varlığı, sadəcə, dövrün poetik ənənələri ilə məhdudlaşmır. O dövrün hər bir sənətkarı öz məsnəvilərinin “girişində” bu janrın tələblərinə uyğun olaraq münacat, nət və s. kimi hissələri yazırdı. Bu hissələr eyni zamanda həmin sənətkarın düşüncəsinin fəlsəfi-idraki imkanlarını özündə əks etdirirdi. Nizami peyğəmbərlik anlayışı və peyğəmbər obrazına təkcə “giriş etiketləri” çərçivəsində müraciət etməklə qalmamış, “peyğəmbərliyi” bir konsept olaraq “Xəmsə”nin bədii-fəlsəfi konsepsiyasının nüvəsinə yerləşdirmişdir.

Sənətkarın düşüncəsinə görə, Qurani-Kərim, sadəcə, ilahi vəhylərdən ibarət müqəddəs kitab deyil, kainatın, varlıq aləminin yazı modelidir. Nizaminin dərindən bələd olduğu irfani düşüncədə dünyanın və insanın varlığı “aləm” və “kitab” metaforlarından istifadə olunmaqla eyniləşdirilmişdir.

Nizami peğəmbərlərlə bağlı hədis və Quran qissələrinə müraciət edərkən heç vaxt bədii maraqlılıq, süjet cazibədarlığı naminə öz fəlsəfi-

bədii ideyalarından yayınmamışdır. Bu obrazlar və onların mənalandırılması bütün hallarda Nizaminin təcəssüm etdirmək istədiyi konseptual ideyaların açılışına xidmət etmişdir.

"Xəmsə"yə səpələnmiş peyğəmbər obrazları və onlarla bağlı süjetləri vahid müstəviyə gətirdikdə mütəfəkkir sənətkarın izlədiyi həmin ideya-fikir xətti aşkara çıxır. Nizami bu peyğəmbərlərin hər birinin peyğəmbərlik missiyasının nümunəsində, əslində, ilahi risalətin tarixini, mahiyyətini və inkişaf dinamikasını anlayıb təcəssüm etdirməyə çalışmışdır[11].

*Birinci fəslin* **"Hz. Məhəmməd obrazı peyğəmbərlik və insanlıq etalonu kimi"** *adlanan üçüncü paraqrafında* qeyd olunur ki, insanı yaradılış iyerarxiyasının zirvəsinə yerləşdirən Nizami Hz.Peyğəmbəri həm peyğəmbərliyin, həm də yaradılışın etalonu kimi tərənnüm etmişdir. O, bütün poemalarında Hz.Peyğəmbərə xüsusi yer ayırmışdır. Təkcə "Sirlər xəzinəsi" əsərində peygəmbərimizi mədh edən beş gözəlləmə vermişdir.

Nizami göstərir ki, Hz.Məhəmməd insanlıq üçün əxlaqi davranış nümunəsidir:

Onun sözlərindən ədəb şöhrət tapdı,
Onun kəmərindən fələk biçim tapdı[12].
Onun əmri və nəhyi düzlük üstündə qurulmuş,
Onun nəhyi münkər, əmri isə mərufdur[13].

Başqa sözlə:

– Məhəmməd peyğəmbərin (s.a.s) "sözləri" (danışığı) "ədəb" anlayışının özünü cəmiyyətdaxili münasibətlərdə şərəfli, qiymətli, nümunəvi davranış modelinə çevirdi.

---

[11]**Birinci fəslin ikinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Гусейнова, Х. Пророки в творчестве Низами Гянджеви // Днiпропетровський Нацiональний Унiверситет iменi Олеся Гончара. Лiтература в контекстi культури. Збiрник наукових праць, випуск 27(2), – Киiв: Видавний дiм Дмитра Бураго, – 2017.– с. 78-85.

[12]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm. 1981, s. 26

[13]Nizami Gəncəvi. Yeddi gözəl / Filol. tərc., izahlar və qeydlər R.Əliyevindir. Bakı: Elm, 1983, s. 18

– Məhəmməd peyğəmbərin “kəməri” ilə təkcə cəmiyyət aləmi deyil, eyni zamanda göylər aləmi (fələk) yeni forma və məzmun kəsb etdi. Burada “peyğəmbərin kəməri” obrazı onun Allaha bağlılığını ifadə edən metaforadır. Fələk isə Peyğəmbərlə Allah arasında göyləri, sonsuz kainatı nəzərdə tutan dua məkanıdır. Nizamiyə görə, məhz Hz.Peyğəmbərin Allaha etdiyi dualar insanla Allah arasında duaya əsaslanan münasibətlərin tamamilə yeni formasına çevrildi.

– Hz.Məhəmməd “Əmr be məruf və nəhy əz münkər” davranış modelinin ideal örnəyidir. Onun bütün həyatı, varlığı, düşüncəsi və idrakı istisnasız olaraq yaxşılığa dəvət, pislikdən çəkindirmə üzərində qurulmuşdur.

Nizami insanlara Hz.Peyğəmbərin təbliğ etdiyi qayda-qanunların düzgünlüyünü, Onun sözlərinin birbaşa Allah kəlamı olduğunu bildirir. Nizami Gəncəvinin bu sözləri “Haşr” surəsinin 7-ci ayəsində öz təsdiqini tapır. “...Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir”.

Nizami “Məhəmməd” adını belə mənalandırır:

İstər-istəməz o (“əlif”) həmin “mim” və “dal”dan
Səadət məmləkəti və kamal fərmanını aldı[14].
Məhəmmədir ki, əzəldən hər nə varsa
Onun adının yaraşığı ilə naxışlanmışdır[15].

S.Hacı yazır ki, *“hz.Nizami “dal” və “mim” hərflərinin yazılış şəklindən yararlanaraq, obrazlılıq yaratmışdır. Burada diqqət çəkən odur ki, hz.Nizami “dal”ın boyunbağıya oxşamaq, “mim”in kəməri andırmaq imkanından istifadə etmişdir”*[16].

Şairə görə:

---

[14]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm. 1981, s. 25

[15] Nizami Gəncəvi. İskəndərnamə (“Şərəfnamə”) / Filoloji təcümə: Qəzənfər Əliyev. Bakı: Elm, 1983, s. 29

[16] Siracəddin Hacı. Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.). 1-ci kitab. Bakı: Nafta-Press, 2008, s. 85-86

– Yaradılışın bütün tarixi İlahi tərəfindən qabaqcadan modelləşdirilmiş, sxemləşdirilmişdir. Əvvəl-axır təkcə Ona məlumdur.

– Həzrət Məhəmmədin dünyaya gəlişi və fəaliyyəti varlıq aləminin yaradılış sxemində əvvəlcədən mövcuddur. Bu baxımdan, peyğəmbərin nə vaxt və harada doğulacağı və hansı missiya ilə vəzifələndiriləcəyi yaradılışın ilahi məntiqinə aid hadisədir.

– "Məhəmməd" adı özünün bütün qrafik işarələri sistemi ilə varlıq aləminin strukturunu özündə inikas edən simvol-işarədir. Bu cəhətdən, Məhəmməd peyğəmbər (s.a.s) təkcə cismani varlığı və mənəvi kimliyi ilə deyil, eyni zamanda onu cəmiyyət içərisində fərdiləşdirən adı ilə də ilahi sirr, ilahi yaradılış kodu, ilahi mövcudluq düsturudur[17].

*Birinci fəslin* **"Meracnamələrin dini-fəlsəfi məna aləmi"** *adlanan dördüncü paraqrafında* bildirilir ki, Nizami yaradıcılığının dini-irfani kontekstdə öyrənilməsi baxımından "Xəmsə"dəki meracnamələrin yeri misilsizdir. Burada bədii sözlə ilahi məna bir-birini yüksək sənətkarlıqla tamamlamışdır.

Nizami Gəncəvi insana ali həqiqəti tapmaq yolunda mürşidlik edir. Bu cəhətdən onun yaradıcılığı bütövlükdə insanlığa ünvanlanmışdır. M.Əlizadə yazır ki, *"Nizami ideya aləmi ümumbəşəri mahiyyət daşıyır. Onun bədii-fəlsəfi irsi bir xalqa deyil, bütün xalqlara, bəşəriyyətə məxsusdur"*[18].

"Meracnamə" – hərfən merac haqqında kitab, əsər mənasındadır. Merac İslam tarixinin ən mühüm hadisələrindən biridir. "Merac" sözünün lüğəvi mənası "yüksəyə çıxmaq", "ucalmaq", "yüksəlmək" deməkdir. "Merac", eyni zamanda, nərdivan deməkdir. Rəsulallah əfəndimizin göylərə çıxarıldığı, bilinməyən yerlərə götürüldüyü[19]. Bu hadisə İslam

[17]**Birinci fəslin üçüncü paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Hüseynova, X. Hz.Muhammədd, Qurani-Kərim və Şeyx Nizami // Türk xalqları ədəbiyyatının aktual problemləri mövzusunda Respublika elmi konfrasının materialları, – Bakı: – 2015. – s. 258-269.

[18]Əlizadə Mübariz. İnsan yaradıcı qüvvədir / Nizami Gəncəvi-850 (məqalələr toplusu). Bakı: Bakı universiteti nəşriyyatı, 1992. s. 98

[19] Ahmet AĞIRAKÇA. Kaynaklar Işığında İsrâ ve Miraç Olayı.http://www.artuklu.edu.tr/dosyalar/DergiMakale/00000/00000022_yupirjdm5p4nw.pdf.

tarixində "İsra" da adlanır. Bu böyük hadisə gecə vaxtı baş verdiyi üçün ona "İsra" deyiblər. Çünki İsra sözünün mənası "gecə vaxtı yerimək" deməkdir[20].

Orta əsrlər Şərq fəlsəfi-idraki düşçüncəsinin ən parlaq nümayəndələrindən olan Nizami Gəncəvi də öz əsərlərində merac motivinə fəlsəfi-metaforik obraz və kateqoriya kimi dəfələrlə müraciət etmişdir.

Bu vilayətin beşiyi, sultanı olan Məhəmməd
Bir neçə xəlifənin vəliəhdi idi.
Müşklə dolu göbəyi "Beyti əqsada" açdı,
Yerin göbəyindən "əqsaya" baş qoydu.
Özünü dünya bəndindən xilas etdi,
Mələklərin sevimlisi olmaqla seçildi[21].

Şair burada Hz.Məhəmmədin merac transı zamanı gecə yarısı bədən və ruh olaraq Məkkədən Məscidi Əqsaya gəlməsini və oradan da göylərə yüksəlməsini təsvir edir.

Tədqiqat göstərir ki, Nizami yaradıcılığında meracnamələrin iki əsas funksiyası var: bədii-estetik və fəlsəfi-idraki. "Xəmsə"də meracnamələrin bədii-estetik funksiyası məsnəvi ənənəsi ilə bağlıdır. Belə ki, o dövrün məsnəvilərində Allahın, Peyğəmbərin mədhi, o cümlədən meracnamələr poetik ənənə idi. Nizami də bu ənənəyə riayət edərək meracnamə janrına müraciət etmiş, Hz.Peyğəmbərin meracını özünün yüksək istedadı və mahir qələmi ilə tərənnüm edərək, Şərq meracnamə janrının ən gözəl nümunələrini yaratmışdır.

"Xəmsə"də verilmiş meracnamələrin bədii-estetik gözəlliyi onların zahiri örtüyü, üst məna qatıdır. Bu zahiri qatın altında dərin fəlsəfi-idraki məna qatı var. Nizaminin bir mütəfəkkir kimi bütün fəlsəfi düşüncələri, insan, dünya, zaman, kainat və onun Yaradıcısı haqqında dünyagörüşü meracnamələrin bu fəlsəfi-idraki məna qatında inikas olunmuşdur.

---

[20] Hafiz Ather Hussain al-Azhari. The Night of Isra and Mi'raj. www.IslamicCentre.org.+

[21] Nizami Gəncəvi. İskəndərnamə ("Şərəfnamə") / Filoloji təcümə: Qəzənfər Əliyev. Bakı: Elm, 1983, s. 31

Nizami üçün Məhəmməd peyğəmbərin meracı ilk növbədə insan varlığının məna və mahiyyətini anlamaq üçün idraki açar idi. “İskəndərnamə”də “Əgər o, ərşin tağından başını çıxarmasaydı, // Bu mavi səmanın (doqquzuncu fələyin” pərdəsini kim yırtardı?” – deyən şair bununla məhz insan varlığının gücünə, qüdrətinə işarə edir. Şair Qurani-Kərimdə Məhəmməd peyğəmbərin başqaları kimi “ölümlü insan olmasının dəfələrlə vurğulanması faktı ilə Merac hadisəsini konseptuallaşdıraraq, bunun əsasında “Merac” fəlsəfi baxış sistemini qurmuşdur.

Nizaminin “Merac” baxış sistemində İnsan (Məhəmməd) və Merac iki əsas düşüncə konseptidir. Məhəmməd bir insan kimi Əzəl və Əbədi ehtiva edən insan substratı, insanlıq cövhəridir. Hər bir insanda olan bütün maddi və mənəvi ünsürlər Məhəmməd peyğəmbərdə var idi. Yəni bütün insanlar və Məhəmməd peyğəmbər eyni maddi-mənəvi cövhərdən yaradılmışlar. Lakin Peyğəmbəri (s.a.s) bütün insanlardan fərqləndirən ən mühüm cəhət onun insanlığın örnəyi, örnək-insan, etalon-insan olmasında idi. Şair bunda hər bir insanın insani-cahil mərtəbəsindən insani-kamil mərtəbəsinə ucalmaq şansını görürdü. Nizamiyə görə, məhz bu məqamdan hər bir insanın meracı başlanır. Yenə də “İskəndərnamə”də “Mənəvi aləmə çatmaq səməndini bizə o verib, // Ərşin hədiyyəsini bizə o göndərib”, – deyən şair məhz bu şansı nəzərdə tutaraq, Meracı “ərşin insanlara hədiyyəsi” və “mənəvi aləmə ucalmağın vasitəsi (səməndi)” adlandırmışdır[22].

**Dissertasiyanın “Nizami yaradıcılığında Allahın isim və sifətləri irfani-bədii düşüncə kateqoriyaları kimi” adlanan ikinci fəslində** Allahın sifətləri və isimlərinin irfani-bədii düşüncə kateqoriyaları olması, şairin Allahın “Təvvab” isminin insanın irfani-əxlaqi kamilləşmə modeli kimi təcəssüm etdirməsi kimi məsələlər tədqiq olunur.

---

[22]**Birinci fəslin dördüncü paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Гусейнова, Х. Мираджнаме в творчестве Низами Гянджеви / Университет открывающий и преобразующий мир. Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III Международный научно-практической конфиренции. – Пятигорск: – 2016.– с. 22-30.

*İkinci fəslin* **“Allahın sifətləri irfani-bədii düşüncə kateqoriyaları kimi”** *adlanan birinci paraqrafında* göstərilir ki, Nizami Gəncəvinin irfani görüşlərinin ən mühüm və mürəkkəb hissəsini onun Allahın isim və sifətləri haqqında baxışlarının bədii-fəlsəfi təcəssümü təşkil edir.

Nizami öz düşüncələrində Yaradanını sifətləri ilə dərk etmiş və Allahu Təalanın sifətləri şairin bəsirətində ona açılmışdır. O, kamilliyə gedən yolun ən böyük keçidini Allahı qeyb gözü ilə görüb dərk etmək olduğunu vurğulayır. Belə ki, insan bütün varlığı – cism və ruhu ilə pəhrizini saxlayıb, öz ruhunu bədənin cismani tələblərindən yuxarı qaldırmağa nail olduqda onun qeyb gözü açılar. Bu zaman insan Tanrısını, Onun isim və sifətlərini idrak edərək qeybi onlarda tapar. Beləliklə, kamilliyə gedən məşəqqətli yolun ən çətin hissəsi arxada qalmış olar[23].

Şair əsərlərini Allahın adı ilə başladıqdan sonra Onun ən gözəl isim və sifətlərini zikr etmişdir. Bu təsadüfi deyildir. Nizami üçün bu isim və sifətlər varlığı idrakın açarları idi. Nizami Allahu Təalanın sifətləri haqqında deyir:

Sənin sifətini (mahiyyətini) dərk etmək qarşısında acizik,
“Allahı kim tanıdı?... (hədisini) dəfələrlə oxumuşuq[24].

Yəni Allahın sifətlərini bilmək bu sifətlərin işarələdiyi ilahi mahiyyəti bilmək deyildir. İnsan idrakı bunu dərk etməkdə acizdir. Z.Məmmədovun yazdığı kimi, *“Nizaminin təbirincə, “ilahi qüdrətin mənbəyini araşdırmaq heç kəsə düyünü açmaz”. O, yalnız “Öz atributları ilə vəsf ediləndir”*[25].

Şairə görə elmin yolu Allahu Təalanın isim və sifətlərindən keçir:
Elm öyrən ki, dünyanı sənə bağışlasınlar

---

[23] **İkinci fəslin birinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Hüseynova, X. Nizami Gəncəvi yaradıcılığında Allahın (c.c.) sübuti sifətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, № 1, – Bakı: – 2019. – s. 224-230.

[24] Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, 24

[25] Zakir Məmmədov. Nizaminin fəlsəfi düşüncələri. Bakı: Elm, 2000, s. 27

Əsmanı sən oxu ki, sənə məna bəxş etsinlər[26].

*İkinci fəslin* **"Allahın isimləri irfani-bədii düşüncə kateqoriyaları kimi"** *adlanan ikinci paraqrafında* deyilir ki, Qurani-Kərim və Hz.Peyğəmbərin hədislərində Allaha aid edilən yüzlərlə isim mövcuddur. Lakin insanlara daha asan olsun deyə 99 ismi seçilmişdir. Bu isimlər əsmayi-hüsna ("ən gözəl adlar") adlanır. Qurani-Kərimdə deyilir: "Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri (əziz sözündən Uzza, Allah sözündən əl-lat, mənnan sözündən Mənat kimi adlar düzəldib haqq yoldan azanları) tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!" ("Əraf" surəsi, 180)[27]. Nizami də Uca Yaradanı yad etmək, Onu (c.c.) tanımağa çalışmaq, İslam dininin gətirdiyi uluhiyyət məfhumunu dərk etmək, zikirlə könlümüzü aydınlatmağımız üçün oxuculara Əsmaül-Hüsnanı əzbər öyrənməyimizi və həyatımızın ayrılmaz bir parçasına çevirməyimizi tövsiyə edir:

Əgər Nizaminin xəttinə (yazılışına) qədəm qoysan
(diqqət yetirsən),
Min bir adın sayını görərsən.
İlyasın Lamından əlifi bir də "b" çıxsan,
Adı doxsan doqquzlanar.
Beləliklə, mənim min bir hasarım vardır,
Yüzdən bir əksik silahım vardır
Odur ki, həm əziyyət çəkməkdən azadam,
Həm də xəzinəmin oğurlanmasından asudəyəm[28].

Şair burada öz yaradıcılığını bütövlükdə "Nizaminin xətti" metaforasında obrazlaşdıraraq, yaradıcılığının başdan-başa Allahın 1001 adına əsaslandığını bildirir. Allahın 1001 adı varlıq aləminin mahiyyətini özündə təcəssüm etdirir. Nizami də öz yaradıcılığının varlıq aləminin

---

[26] Nizami Gəncəvi. Xosrov və Şirin / Filoloji tərcümə, izahlar və qeydlər H.Məmmədzadə. Bakı: Elm, 1981, s. 332

[27] Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. – Bakı: Azərnəşr, – 1992. s. 145

[28] Nizami Gəncəvi. Leyli və Məcnun / Filol. tərc., izahlar və qeydlər M.Əlizadənindir. Bakı: Elm. 1981, s. 49-50

ilahi mahiyyətini inikas etdiyini, bəsirətli oxucunun, yəni özünün dediyi kimi, "Nizaminin xəttinə (yazılışına) qədəm qoyan (diqqət yetirən)" oxucunun bu yaradıcılıq vasitəsilə aləmin ilahi mahiyyətini idrak edə biləcəyini bəyan edir. O, "İlyas" adının əbcəd hesabındakı simvolikası əsasında Allahın 99 "ən gözəl adlarının" (əsmayül-hüsnanın) Onun 1001 adının əsasını, daha doğrusu, mahiyyətini təşkil etdiyini bildirir. Yəni varlıq aləminin mahiyyəti Allahın 1001 adında simvollaşırsa, bu 1001 adın mahiyyəti də Onun 99 ən gözəl adında simvollaşır[29].

*İkinci fəslin* **"Allahın "Təvvab" ismi insanın irfani-əxlaqi kamilləşmə modeli kimi"** *adlanan üçüncü paraqrafında* göstərilir ki, Nizami öz əsərlərində Allahın "Təvvab" (tövbə edən) ismini insanın irfani-əxlaqi kamilləşmə modeli kimi mənalandırmışdır. O, insanları onların babası Hz.Adəm tövbə edərək bağışlandığı kimi, tövbəyə çağırır:

Sənin ədimindən çirk heç vaxt silinməz,
Sən də Adəm kimi sidqlə tövbə etməsən.
Günahkarlar üçün ən yaxşı (əməl) üzr istəməkdir,
Adəm üzr istəyərək o (yüksək) məqama çatdı[30].

Şair bu zaman birmənalı şəkildə "Quran"a əsaslanır: "(Nəhayət) Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir" ("Əl-Bəqərə" surəsi, 37)[31].

Nizamiyə görə, tövbənin silə bilmədiyi heç bir günah, yox edəməyəcəyi heç bir pislik yoxdur. Ən ağır günah sayılan şirk belə iman etməklə ortadan qalxa bilər. Çünki heç bir günah Allahın mərhəmətindən, bağışlayıcılığından daha böyük deyildir. Nizami də "Sirlər xəzinəsi"ndə "Naümid olub sonra bağışlanan padşahın dastanı" hekayəti ilə Allahın sonsuz rəhmətini, günah işlətdikdən sonra peşman olaraq Allaha

[29] **İkinci fəslin ikinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:**Hüseynova, X. Nizami Gəncəvi yaradıcılığında Allahın (c.c.) əsmayül-hüsnası // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, № 5, – Bakı: – 2018. – s. 93-98.

[30]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, s. 81

[31] Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. – Bakı: Azərnəşr, – 1992. s. 7

yönələn qullarının tövbələrini qəbul etdiyini, tövbə qapısının daim açıq olduğunu göstərmişdir. İnsan nəfsi ilə baş-başa qalanda vicdanı sızıldamağa, özünü qınamağa başlayır. O, nə qədər günah iş görsə də, bəzən onun bilmədən etdiyi bir xeyir iş həyatını xilas edir. Şair hekayədəki zalım şahın peşman olması ilə günah işlər görən insanlara öz mesajını çatdırır.

**Dissertasiyanın "Nizami yaradıcılığında irfani motiv və obrazlar" adlanan üçüncü fəslində** Nizami yaradıcılığında nəfs konseptinin irfani mahiyyəti və bədii təcəssümü, ruhun irfani-dini kateqoriya və bədii ideya olması, kamil insan obrazının irfani-poetik məna aləmi kimi məsələlər tədqiq olunur.

*Üçüncü fəslin* **"Nəfs konseptinin irfani mahiyyəti və bədii təcəssümü"** *adlanan birinci paraqrafında* göstərilir ki, Nizami əsərlərində insanın kamillik mərtəbəsinə yüksəlmə yollarını və bu yolda ona mane olan nəfsin mahiyyətini bədii şəkildə təcəssüm etdirmişdir. Allah dərgahında yüksək məqam sahibi olmaq üçün ən başlıca vasitə nəfsin tərbiyə edilməsidir.Şair bu əsrarəngiz aləmə daxil olmağın yollarını (nəfsin təzkiyyə və tərbiyəsi üsullarını), insanın özündə saxladığı sirrini insana açır, insanın özünü özünə tanıdır.

Nizamini irfan şairi adlandıran S.Hacı yazır ki, *"Nizami bəyan, bürhan, irfan bilgi sisteminin (məscid, mədrəsə, təkkə; vəhy, ağıl, duyğu) yetişdirdiyi kamil insandır, onun şəxsiyyəti, düşüncəsi və məsnəviləri hər üç sistemin – məktəbin (bəyan, bürhan, irfan –* ***X.Hüseynova****) dəyərləri ilə yoğrulmuşdur"*[32].

Nizami də əsərlərinin hər birində nəfsin insanı azdıran sifətlərinin olduğunu bildirir:

Nəfsinin gözlərini bir-bir kor elə,
Bu yaxşı işinlə ağlına üzərlik yandır[33]

Nizaminin insanı "nəfsinin gözlərini bir-bir kor etməyə" çağırması yuxarıdakı hədisdə "Allahu Təalanın nəfsi müxtəlif sıxıntılarla

---

[32] Siracəddin Hacı. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" məsnəvisinin şərhi (XIV-XVII məqalələr). 9-cu kitab. Bakı: Nafta-Press, 2016, s. 25

[33] Nizami Gəncəvi. Xosrov və Şirin / Filoloji tərcümə, izahlar və qeydlər H.Məmmədzadə. Bakı: Elm, 1981, s. 28

tərbiyə etməsi" düsturuna əsaslanır. Şair "hər bədəndə qəzəbdən qışqırtı xisləti və hər insanda bir dirilik təbiəti var" deməklə insan varlığının ontoloji mahiyyətinin İlahinin məntiqilə qurulduğunu vurğulayır. Yəni təbiətin üzvi bir parşası olan insanın daxilində stixial güc, qüdrət var. Bu gücü ona Allah (c.c.) bəxş etmişdir. Həmin güc, qüdrət onun nəfsidir. Nəfs olmasa, insan varlıq aləmində mövcud ola bilməz. Nəfs kainatın stixial gücünü özündə təcəssüm etdirən varlıqdır. İnsanı hərəkətə gətirən, diri saxlayan nəfsdir. Lakin o nizamlanmasa, cilovlanmasa, varlıq aləminin bütün nizamını dağıdar.

Şair bildirir ki, insanın həvası onun ürəyində özünə məskən salmış, onu özünə qul etmişdir. Ondan xilas olmağın tək yolu isə həva və həvəsini ürəyinə qul edərək, onun üzərində hökmdar olmaqdır:

Həva və həvəsdən baş qaçırmaq sərvərlik əlamətidir,
Həva və həvəsi tərk etmək peyğəmbərlərin qüdrətidir[34]

İslam alimlərinin çoxunun fikrinə görə, insan mücahədə, seyru-süluk, riyazət kimi mənəvi dərslərlə nəfsin pis sifətlərini dəyişə, onların yerinə gözəl sifətlər qazana bilər[35]. Bu cəhətdən, Nizami əsərlərində verilmiş maraqlı hekayələr ilk baxışdan sırf bədii-estetik təsir bağışlayır. Şair, doğrudan da, öz əsərlərini bədii cəhətdən mükəmməl, estetik cəhətdən cazibədar etməkdən ötrü onlara öz bədii təfəkkür və istedadının gücü ilə minbir bədii naxış vurmuşdur. "Xəmsə"dəki hekayələr belə bədii naxışlar, estetik ilmələrdir. Lakin bu hekayələr təkcə bədii-estetik funksiyanı reallaşdırmır, eyni zamanda irfani-idraki məqsədlərə də xidmət edir.

Tədqiqat göstərir ki, şairin nəfs konseptinə fəlsəfi-idraki yanaşması iki tərəfi ilə diqqəti cəlb edir:

Birincisi, nəfsin mahiyyəti və insan varlığındakı yeri haqqında fəlsəfi baxışlar;

İkincisi, insanın öz nəfsindən faydalanıb ilahi səadətə necə yetişməsinin bədii təcəssümü."Dinin qulu ol, divin qulu olma" – deyən

[34]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, s. 112

[35]İmam Gazali. İhyau ulumid-din rubul-muhlikat / Çeviren: Ahmet Serdaroğlu. Cilt:3. s. 128

şair bununla insanlara nəfsə qalib və sahib olmağın yeganə yolunun Allahın dinindən keçdiyini birmənalı şəkildə bəyan etməkdədir[36].

*Üçüncü fəslin* **"Ruh irfani-dini kateqoriya və bədii ideya kimi"** *adlanan ikinci paraqrafında* deyilir ki, Nizaminin "Xəmsə"də qarşısına qoyduğu əsas məqsəd "İlahi həqiqətə" çatmağın yollarını göstərməkdir. Şairə görə, buna nail olmağın yolu İslam dinindən keçir. Odur ki, tərənnüm etdiyi ideal insan obrazı islami kamilliyin yüksək dərəcəsində olan varlıqdır. Nizaminin bu insanlıq təlimində ruh konsepti mühüm yer tutur. Şairin yaradıcılığı üzərində apardığımız müşahidə və təhlillər göstərir ki, o, ruhu irfani-dini kateqoriya və bədii ideya kimi mənalandırmışdır. Belə ki, "Xəmsə"yə daxil olan poemalarda ruhun mahiyyəti, ruh-bədən münasibətləri, insan öldükdən sonra ruhun aqibəti kimi düşüncələr geniş bədii lövhələrdə inikas olunmuşdur.

Ruh Uca Rəbbimizə aid insanı heyrətdə qoyacaq bir varlıqdır. İmam Qəzzaliyə görə, *"insan idrakı, ağıl ruhun əsil mahiyyətini anlamaqda acizdir"*[37].

Nizami öz yaradıcılığında bütün irfani-dini məsələlərə, o cümlədən ruh probleminə ilk növbədə bədii təcəssüm müstəvisində yanaşmışdır. O, hər şeydən əvvəl şair idi. Uca Allah (c.c) ona öz düşüncələrini yüksək bədii-estetik gözəlliyə malik söz vasitəsilə təcəssüm etdirmək neməti bəxş etmişdi. Bu cəhətdən şair ruh probleminə də baxışlarını bədii motiv və obrazlar vasitəsilə ifadə etmişdir. Sənətkarın fəlsəfi düşüncələrinin yekun abidəsi və zirvəsi olan "İqbalnamə" poemasının "Hind həkiminin İskəndərlə söhbəti" adlı hekayəsində onun ruhun mahiyyəti haqqında görüşləri inikas olunmuşdur[38].

---

[36]**Üçüncü fəslin birinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Hüseynova, X. Nizami Gəncəvi yaradıcılığında nəfs təzkiyəsi // Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 1(101), – Bakı: – 2017. – s. 220-224; Hüseynova, X. Nizami Gəncəvi yaradıcılığında nəfs və onun sifətləri // AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri, № 11, – Bakı: – 2017. – s. 372-382.

[37]İmam Gazali. Hak yolun esasları / Tərcümə edəni: Dilaver Selvi. İstanbul: Semerkand yayınevi, 2013, s. 42

[38] Nizami Gəncəvi. İskəndərnamə ("İqbalnamə") / Filoloji tərcümə: Vaqif Aslanov. Bakı: Elm, 1983, s. 502

Nizami bu dialoqda bədii təxəyyül müstəvisində iki fəlsəfi-idraki dünyagörüşünü qarşılaşdırmışdır:

Birincisi, varlıq haqqında hind ontoloji fəlsəfəsi;

İkincisi, varlıq haqqında İslam ontoloji fəlsəfəsi.

Beləliklə, Nizami ruh haqqında görüşlərini bu hekayədə qarşılaşdırma-müqayisə yolu ilə vermişdir. Bu, bir tərəfdən hekayəni bədii cəhətdən maraqlı və oxunaqlı etmişdirsə, digər tərəfdən, müəllifə ruh kimi mürəkkəb və üzərində "Allahın sirri" hökmü qoyulmuş problemə təfəkkür genişliyi ilə baxmağa imkan vermişdir. Hindli filosof ruhu substansional mahiyyətinə görə od hesab etsə də, Nizami İskəndərin dili ilə bəyan edir ki, ruhun substansional cövhərini od təşkil etmir, o – Allahdandır: insan yaranarkən ruh ona bədəninə daxil olduğu kimi, ölərkən bədənindən çıxaraq öz əvvəlki məqamına qayıdır.Ruhun substansional mahiyyətini ilahi nur/işıq təşkil edir. Lakin bu işıq maddi aləmə aid, yəni maddi olan, maddi effektlə yaranan işıq yox, qeyri-maddi mahiyyətə malik olan ilahi nurdur.

Nizami təsdiq edir ki, ruh bədənə daxil edilmiş varlıqdır:

Sənin vücud cənnətinə hurini o bəxş edibdir
Sənin görən nərgizlərinə nuru o bəxş edibdir[39].
Can bəxş etdi, canlılara cahan verdi,
Bundan artıq xəzinə (nemət) necə vermək olar?[40]

Şair əsərlərində "ruh" kəlməsinin əvəzinə, əsasən, bu sözün qarşılığı olan "can" kəliməsindən istifadə etmişdir:

Səndən başqa fələyə əyri dövranı kim verə bilərdi?
Cismin qazanına can duzunu kim tökə bilərdi?[41]

Müəllif burada ruhun insanın vücuduna Allah tərəfindən verildiyini ritorik suallarla təsdiq edir. Quranda buyurulduğu kimi: "Mən onu tamamlayıb (insan şəklinə salıb) öz ruhumdan (özümün yaratdığı

---

[39]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, s. 17

[40] Nizami Gəncəvi. Leyli və Məcnun / Filol. tərc., izahlar və qeydlər M.Əlizadənindir. Bakı: Elm. 1981, s. 172

[41]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, s. 20

ruhdan) üfürən (can verən) kimi ona (hörmət əlaməti olaraq) səcdə edin!" ("Sad" surəsi, 72)[42].

"Xəmsə" üzərində apardığımız müşahidələr göstərir ki, ruh problemi daim Nizaminin diqqət mərkəzində olmuş, şair ilk əsəri olan "Sirlər xəzinəsi"ndən sonuncu poemasına qədər bu mövzunu inkişaf etdirmişdir. Nizaminin ruh fəlsəfəsi bütövlükdə İslam ontologiyası və qnoseologiyasına əsaslanır. Yəni şair istər ruhun bir varlıq hadisəsi kimi mahiyyətindən (ontoloji kontekst), istərsə də dərkindən (qnoseoloji kontekst) söhbət açarkən ruh təliminin islami əsaslarından çıxış edir. Şairin ruh haqqında fikirlərini bir küll halında ümumiləşdirdikdə aydın olur ki, o, ruhla bağlı öz dövrünün bütün dini və fəlsəfi baxışlarına dərindən bələd olmuşdur. Onun ruhun mahiyyətinin müxtəlif şəkillərindən və fərqli xüsusiyyətlərindən bəhs etməsi bunun inkarolunmaz sübutudur. Nizami "Allahın sirri" olan ruh haqqında hətta qeyri-tövhid dinlərinin də baxışlarına müqayisəli-polemik kontekstdə münasibət bildirmişdir[43].

*Üçüncü fəslin* **"Kamil insan obrazının irfani-poetik məna aləmi"** *adlanan üçüncü paraqrafında* deyilir ki, Nizami həm də alim, filosof idi. Onun ən böyük üstünlüyü elmi düşüncələrini, fəlsəfəsini yüksək poetik üslubda nəzmə çəkməsi olmuşdur. Nizaminin əsas məqsədi, ideyası isə insan oğlunun ali dərəcəyə ucalıb öz Yaradanını dərk edərək Ona çatmasıdır. Əlbəttə ki, bütün insanlar üçün "ən kamil insan" dedikdə ağlımıza ilk gələn Hz.Peyğəmbər (s.ə.s) olur. Allahu Təala bütün kainatı Onun (s.ə.s) üçün yaratdığını bildirir. Nizami də belə düşünür:

O, (Allahın buyruğu ilə) yaranmış dairənin
(kainatın) ən işıqlı nöqtəsidir,

[42] Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. – Bakı: Azərnəşr, – 1992. s. 461

[43] **Üçüncü fəslin ikinci paraqrafında əldə edilmiş nəticələr haqqında bax:** Hüseynova, X. Nizami Gəncəvi yaradıcılığında ruh məsələsi // AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri, № 13, – Bakı: – 2017. – s. 324-336.

O, bütün deyilmiş sözlərin ən (gözəl) nöqtəsidir[44].

Nizami öz yaradıcılığında Hz.Peyğəmbəri (s.ə.s.) daim bəşəriyyətin ən qiymətlisi kimi təqdim edir. O, kamillər sırasında eyni zamanda digər peyğəmbərləri də göstərmişdir. Şairin əsərlərində onun oğlu Məhəmmədə verdiyi nəsihətlər, müxtəlif nəsihətamiz hekayələr, hətta Xosrovun Şirinə, Məcnunun Leyliyə bəslədiyi ülvi məhəbbətlə yetişdikləri uca zirvə, eyni zamanda İskəndərin ən yüksək məqama çataraq peyğəmbər dərəcəsinə qədər yetişməsi – bütün bunların hər biri onun kamil insan haqqındakı fikir və düşüncələrini aydın şəkildə ortaya qoyur.

Şairə görə insanın ən ali dərəcəyə çatması üçün bir neçə mərtəbədən keçməsi vacibdir. Nizami, ilk olaraq, Allahu Təala ilə bağladığımız əhdi bizə xatırladır və deyir:

(Əvvəldən) əhdiniz belə idi ki, bu dar (mənzildə)
Ürəyin sıxılacaq və yenə (daimi) yerinə qayıdacaqsan.
İndi əgər ilahi ilə əhdi pozsan,
Sənin canın bu işin öhdəsindən necə gələ bilər[45].

Nizami insan kamilliyinin ümdə şərtlərindən birinin düzlük olduğunu göstərir. Sənətkara görə, insana aid gözəl xüsusiyyətlərdən biri də yaxşılıqdır. Şair az yemək və bağışlamağı kamil insan olmağın şərtləri olaraq irəli sürür. Kamil insanın sahib olacağı ən önəmli xüsusiyyətlərdən biri isə səbirli olmaqdır. İnsan dünyaya zəhmət, çətinliklər çəkmək üçün gəlib və bunun əsasında dünyadakı imtahan durur. Şairə görə, kamil insan olmağın ən üstün insani keyfiyyətlərindən biri də elmli olmaqdır. Din kamil insanın varlığının məhək daşıdır. Nizami Gəncəvi din haqqında bütün əsərlərində bəhs etmiş, xüsusilə də İslam dininin önəmini vurğulamışdır.

Dissertasiyanın **“Nəticə”** hissəsində aşağıdakı nəticələr ümumiləşdirilir:

1. Nizami bütün fəlsəfi-poetik, idraki-estetik düşüncəsi ilə İslam və irfanla qırılmaz şəkildə bağlı olmuşdur. Şairin əxlaqi, fəlsəfi, tarixi,

---

[44]Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filoloji tərcümə, izahlar, şərhlər və qeydlər R.Əliyevindir. Bakı: Elm, s. 26

[45]Yenə də orada, s. 140

dini xüsusən İslam dininə aid düşüncələri, ifrani fikirləri bunu birmənalı şəkildə təsdiq edir.

2. Şairin əsərlərində din konsepti bütün tarixi dinamikası ilə əks olunmuşdur. Bunu şairin ibtidai dini inanclara müraciəti aydın şəkildə təsbit edir. Sənətkar bu inanclardan təkcə bədii məzmun materialı kimi istifadə etməmiş, eyni zamanda onlara ilkin insanın yaradıcı başlanğıc axtarışların təzahürləri kimi yanaşmışdır.

3. Hz.Peyğəmbərin nümunəvi həyat yolu, insaniyyət yolunda çatdığı kamillik məqamı nümunə kimi Nizaminin bədii düşüncəsinin obyektinə çevrilmişdir. Bundan da məqsəd insan övladının kamilliyi yolunda keçdiyi mərhələlərin bədii-estetik şəkildə sərgilənməsi olmuşdur.

4. Nizaminin, az qala, hər beyti öz poetik ruhu, ideoloji enerjisi baxımından Qurani-Kərimlə səsləşir. Nizami yaradıcılığında din konseptinin həm tarixi, həm fiqhi, həm də ruhani baxımdan canlı, təravətli inikas olunmasında onun dərin dini savadının müstəsna rolu vardır.

5. Nizami yaradıcılığında Allahu Təalanın Rəhman və Rəhim isimləri xüsusi irfani-idraki kateqoriya və bədii ideyalar kimi təcəssüm olunur.

6. Nizaminin əsərlərində onun insanın həqiqətə gedən yolu, insanın tövhid məqamına necə ucala biləcəyi haqqında irfani görüşləri inikas olunmuşdur. Şairə görə, insan tövhid məqamına yetişdikdə, yəni təbiətin arxasındakı ruhi təbiəti bəsirət gözü ilə görüb, irfan nuru ilə işıqlandıqda saçından dırnağına qədər öz varlığında Allahı tapır, bütün kainatın Allahın zikrində necə möhtərəm bir ahənglə dövr etdiyini əqlən və ruhən idrak edir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. İslamda tövbə və Nizaminin “Naümid padşahın bağışlanması” dastanı / Bakı Dövlət Universiteti. İlahiyyat. Elmi məcmuəsi, № 22, Bakı: 2014, , s.399-407

2. Hz.Muhamməd, Qurani-Kərim və Şeyx Nizami / Türk xalqları ədəbiyyatının aktual problemləri mövzusunda Respublika elmi konfrasının materialları, Bakı: 2015, s. 258-269.

3. Nizami Gəncəvi əsərlərində ibtidai inanclar / Qərb bölgəsinin milli-mənəvi dəyərləri mövzusunda Respublika elmi-praktik konfrasın materialları, Gəncə: 2015, s. 72-77.

4. Мираджнамэ в творчестве Низами Гянджеви / Университет открывающий и преобразующий мир. Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III Международный научно-проктической конфиренции. Пятигорск: 2016, с. 22-30.

5. Пророки в творчестве Низами Гянджеви // Днıпропетровський Нациıональний Унıверситет імени Олеся Гончара. Література в контексті культури. Збірник наукових праць, випуск 27(2), Киів: Видавний дім Дмитра Бураго, 2017, с. 78-85.

6. Nizami Gəncəvi yaradıcılığında nəfs təzkiyəsi // Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 1(101), Bakı: 2017, s. 220-224.

7. Nizami Gəncəvi yaradıcılığında nəfs və onun sifətləri // AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri, № 11, Bakı: 2017, s. 372-382.

8. Nizami Gəncəvi yaradıcılığında ruh məsələsi // AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri, № 13, Bakı: 2017, s. 324-336.

9. Nizami Gəncəvi yaradıcılığında Allahın (c.c.) əsmayül-hüsnası // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, № 5, Bakı: 2018, s. 93-98.

10. Nizami Gəncəvi yaradıcılığında Allahın (c.c.) sübuti sifətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, № 1, Bakı: 2019, s.224-230.

11. Nizami Gəncəvi yaradıcılığında Allahu Təalanın səlbi sifətləri / Gəncə Dövlət Universiteti. Elmi xəbərlər, № 1, Gəncə: 2021, s. 238-241.

12. Nizami Gəncəvinin "Hind həkiminin İskəndərlə söhbəti" hekayəsində ruhun mahiyyəti haqqında görüşləri / Nizami Gəncəvi "Xəmsə"sinin şərq-qərb ədəbi-mədəni əlaqələri sistemində yeri və yaratdığı yeni istiqamətlər mövzusunda Beynəlxalq elmi konfrans, Bakı: 2021, s. 166-168.

13. The image of an enlightened human in Nizami Ganjavi poems / "Nizami Gencevi in the 880th year of his birth" 1st World Culture, Science and Education Congress, Gəncə: 2021, s. 114-116.

14. Nizami Gəncəvi yaradıcılığında meracnamələrin bədii estetik və fəlsəfi idrakı / Uluslararası Genceli Nizami Sempozyumu, Erzurum, 2022, s. 34-38

Dissertasiyanın müdafiəsi 24 oktyabr 2023-cü il tarixində saat 14⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu.

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 sentyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb: 19.06.2023**
**Kağızın formatı: 60x84 1/16**
**Həcm: 37563 işarə**
**Tiraj: 100**